# "Xankəndi" iş başında

## Bu nadir sualtı tikinti gəmisi Xəzərdə "Şahdəniz" və AÇG layihələrinə dəstək verməyə davam edir




**Ən yüksək beynəlxalq standartlara uyğun şəkildə inşa edilmiş "Xankəndi" sualtı tikinti gəmisi səkkiz ildən çoxdur Xəzərdədir. Son texniki nailiyyətləri özündə birləşdirən bu nadir gəmi məhz "Şahdəniz-2" çərçivəsində ən böyük sualtı hasilat sistemini quraşdırmaq üçün layihələndirilib və inşa edilib. Əvvəlcədən gəminin 10 il ərzində - 2027-ci ilədək "Şahdəniz" yatağında sualtı quraşdırma və tikinti işlərini həyata keçirməsi nəzərdə tutulmuşdu.**

"Şahdəniz"in əməliyyatçısı - BP şirkəti "Xankəndi"nin layihələndirilməsi və tikintisi barədə dəyəri 400 milyon dollara yaxın olan müqaviləni "Bakı Gəmiqayırma Zavodu" MMC ilə 2014-cü il aprelin 17-də bağlamışdı. 2017-ci il sentyabrın 6-da isə Prezident İlham Əliyev gəminin təqdimat mərasimində iştirak etdi. Dövlət başçısı dedi: "Şadam ki, bu nəhəng gəmi Azərbaycanda, Bakıda inşa edilib. Bu gəmiyə "Xankəndi" adı verilib. Onun da çox böyük mənası var. Xankəndi bizim qədim şəhərimizdir. Xankəndinin adı bizim üçün əzizdir, doğmadır. Təsadüfi deyil ki, dünyada nadir standartlara cavab verən bu gəmiyə məhz bu ad verilmişdir. Bu gəminin tikintisi ölkəmizin gücünü göstərir. Onu göstərir ki, bu gün Azərbaycanda istənilən böyük tikinti işi aparıla bilər. Bu gəminin inşası, istifadəyə verilməsi eyni zamanda onu göstərir ki, vaxtilə gəmiqayırma zavodunun tikintisi haqqında verilmiş qərar düzgün qərar idi. O vaxt bu qərarı verərkən və bu zavodun tikintisinə böyük sərmayə ayırarkən biz məhz bu məqsədi güdürdük ki, Azərbaycan istənilən növ gəmini inşa edə bilsin".

"Xankəndi"nin iki iri gövdə bölməsi Bakıya müvafiq müqavilə əsasında Sinqapurda inşa edilərək təhlükəsiz şəkildə gətirilmişdi. Bunlar Bakı Gəmiqayırma Zavodunda tikinti-quraşdırma sahəsinə çıxarılaraq inşası başa çatmış burun, yaşayış və idarəetmə blokları ilə birləşdirilmiş və müvafiq inteqrasiya işləri yerinə yetirildikdən sonra 2016-cı ilin mayında suya salınmışdı.

Zavodun yanalma körpüsündə "Xankəndi" gəmisinin bütün göyərtə avadanlığı - əsas qaldırıcı kran, köməkçi kranlar, o cümlədən helikopter meydançası quraşdırılaraq gəminin bütün sistemləri, avadanlığı və qurğuları tam inteqrasiya edilib yoxlanılaraq işə salınmış və sazlanmışdı. Açıq dənizdə bütün istismar sınaqları uğurla yerinə yetirilmişdi.

"Xankəndi" gəmisinin tikintisində ümumilikdə 2 mindən çox insan çalışmışdı. Bu işçilərin 75 faizi yerli, 25 faizi əcnəbi mütəxəssislər idi.

DNV GL Norveç və Almaniya təsnifat cəmiyyətinin nəzarəti altında tikilən bu əzəmətli gəminin maksimal sürəti 13,5 knot, uzunluğu 155, eni 32, maksimal suya oturumu 7,5 və əsas göyərtəsinin hündürlüyü 13 metrdir. Gəmi 3,5 metr hündürlüyündə böyük dalğalarda fəaliyyət göstərməsi üçün dinamik mövqeləndirmə sistemi, 600 metrədək sualtı əməliyyatlar aparmaq üçün 900 metrik tonluq əsas kranı, 18 nəfərlik iki dalğıc kapsulu sistemi, məsafədən idarə olunan iki aparat, möhkəmləndirilmiş avadanlıq endirmə şaxtası və digər zəruri texnikalarla tam təchiz edilib. Gəminin ümumi çəkisi 17 min 700 tondur və suya oturumu 6,5 metr olmaqla 5 min metrik tondan artıq yükgötürmə qabiliyyətinə malikdir.

"Xankəndi" 175 nəfərlik kayutlarla təchiz olunub. Gəmi suyun dərinliyi 550 metrədək olan hissələrdə dünya standartlarına uyğun sualtı qurğular inşa etmək üçün layihələndirilib. Özünün bütün imkanlarından istifadə edərək sualtı tikinti gəmisi indiyədək "Şahdəniz"də böyükhəcmli işlər görüb. Cəsarətlə deyə bilərik ki, "Cənub qaz dəhlizi"nin reallaşmasında, bu gün Azərbaycanın 12 ölkəyə qaz ixrac etməsində və digər nailiyyətlərin qazanılmasında "Xankəndi"nin də payı var.

BP-nin 2024-cü ilin nəticələrinə həsr olunmuş hasabatında bildirilir ki, "Xankəndi" sualtı tikinti gəmisi keçən il hazırda istismarda olan bütün "Şahdəniz- 2" və "Azəri-Çıraq-Günəşli" sualtı hasilat obyektlərinə texniki xidmət göstərməyə, yoxlama və müdaxilə ilə bağlı ümumi işlərə dəstək verməyə davam edib. Ümumiyyətlə, regionda tətbiq edilən vahid gəmi strategiyasına uyğun olaraq "Xankəndi" dənizdəki bütün tikinti, quraşdırma, müayinə, təmir və texniki xidmət işləri və fövqəladə hallara cavab tədbirləri üçün əsas gəmi kimi istifadə olunur. Bu da BP və tərəfdaşlarının əməliyyatlarının daha təhlükəsiz və daha səmərəli olmasına xidmət edir.

Bütün bunlarla yanaşı, "Şahdəniz-2" layihəsi çərçivəsində görülən işlər "Xankəndi" gəmisinin əsas iş həcmi olmaqdadır. Burada əsas diqqət layihə üzrə qalan quyuların təhvil verilməsinə yönəldilib. Gəmidən və qazma qurğularından səmərəli istifadəni təmin etmək məqsədilə fəaliyyətlərin optimallaşdırılması və quyuların işə salınması müddətinin sürətləndirilməsi üçün inteqrasiya olunmuş qrafik hazırlanıb.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

Azərbaycan. - 2025.-19 fevral (№37).- S.18.